

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 162 (21.314)

20 avqust 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## 2015-ci ilin yanvar-iyul ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada cari ilin yanvar-iyul aylarında 1 milyard 294 milyon 428 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 5,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2014-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 6,5 faiz artaraq 2935,9 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 566 milyon 401 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 2,8 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-iyul ayları ərzində əsas kapitala



558 milyon 821 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,8 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 494 milyon 143 min manatı və ya 88,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2015-ci ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin həcmi 27 milyon 677 min manat olmuşdur ki, bu da 2014-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 2,1 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 23 milyon 290 min manat olmaqla, bir il öncəki göstəricini 1,8 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-iyul ayları ərzində 202 milyon 127 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 8,7 faiz üstələmişdir. Bu dövr ərzində



muxtar respublikada 11,9 min ton ət (diri çəkidə), 57 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-iyul ayları ilə müqayisədə ət istehsalı 5,5 faiz, süd istehsalı 1,4 faiz artmışdır.

* * *

Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. Cari ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz artaraq 977 milyon 244 min manat, onun hər bir nəfərə düşən həcmi isə 4,3 faiz yüksələrək 2216,5 manat təşkil etmişdir.

* * *

2015-ci ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 392,8 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 avqust 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 45394-ə çatmışdır ki, bunun da 41675-i və ya 91,8 faizi aktiv hesablardır. 2015-ci



ilin yanvar-iyul aylarında açılmış 7164 bank hesabının 7145-i və ya 99,7 faizi aktiv hesablar olmuşdur.

Bu ilin yanvar-iyul aylarında muxtar respublikada 145 POS-terminal quraşdırılmış və bu göstərici 1 avqust 2015-ci il tarixə 1012-yə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın şa-



xələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır. Cari ilin yanvar-iyul aylarında muxtar respublikada 242 milyon 222 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 5,8 faiz artaraq 213 milyon 61 min Amerika Birləşmiş Ştatları dollarını ötmüş, idxalın həcmi isə 58,1 faiz azalaraq 29 milyon 161 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 183 milyon 900 min Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. Qeyd olunan dövrdə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 47 milyon 347 min manata yaxın kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 44,2 faiz çoxdur.

* * *

2015-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 3500,3 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 165,2 min manat və ya 5 faiz çoxdur.

* * *

Bəhs olunan dövrdə muxtar respublikaya 207 min 374 nəfər turist gəlmişdir. Bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz və ya 6807 nəfər çoxdur.

* * *

1 iyul 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4193



nəfər və ya 1 faiz artaraq 441731 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

---

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.*

## Yarmarkada 18 nəfərə işə göndəriş verilib

Kəngərli Rayon Məşğulluq Mərkəzinin keçirdiyi növbəti əmək yarmarkasında bu barədə geniş danışıldı. Tədbiri giriş sözü ilə açan Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov dedi ki, əhalinin iş yeri tapmasında əmək yarmarkalarının rolu böyükdür və bu sosial tədbirin keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Növbəti əmək yarmarkası ərəfəsində rayon Məşğulluq Mərkəzinin əməkdaşları yenə də idarə, müəssisə və təşkilatlarla əlaqə saxlayıb, bütün təşkilatlarda boş iş yerlərinin mövcudluğunu araşdırıblar.

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim Canbaxşıyev çıxış edərək qeyd etdi ki, ötən illər ərzində muxtar respublikanın bütün bölgələrində, eləcə də Kəngərli rayonunda təşkil olunan əmək yarmarkalarında işaxtaran vətəndaşlara boş iş yerləri təklif olunmaqla yanaşı, onların mövcud əmək bazarının tələblərinə uyğun peşələr üzrə kurslara və haqqıödənilən ictimai işlərə cəlb olunması da təmin edilib. Rayon əhalisinin məşğulluğunun gücləndirilməsi, işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılması və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində təşkil edilən əmək yarmarkaları mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə keçirilmiş tədbirlərin təhlili göstərir ki, belə yarmarkalarda işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

İşaxtaran vətəndaş Türkay Taroyeva çıxışında bildirdi ki, belə tədbirlər əhali tərəfindən rəğbətlə qarşılanır, xüsusilə gənclərin müvafiq işlə təmin olunmaq imkanları artırır. O, təşkil olunan növbəti əmək yarmarkasında iştirak edənlər adından minnətdarlığını bildirdi.

17 təşkilatdan 90 boş iş yerinin çıxarıldığı yarmarkada 18 nəfərə işə göndəriş verilib.

---

## Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün kurslara başlanılıb



***Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində muxtar respublikada yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə tariximizin, mədəniyyətimizin və miqrasiya sahəsində qanunvericiliyin öyrədilməsi üçün kursların keçilməsinə başlanılıb.***

Sentyabr ayının 1-dək keçiləcək kursun birinci məşğələsində Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Rahib Kərimov tədbirin əhəmiyyəti haqda danışıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlarından Həsən Kərimov və Pərvin Həsənov tariximiz, mədəniyyətimiz və milli musiqimiz haqda tədbir iştirakçılarına məlumat veriblər. Qeyd edilib ki, dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığına ölkənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də böyük təsir göstərib. Müxtəlif sənət növlərinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Azərbaycan mədəniyyəti və incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir. Uzun və mürəkkəb inkişaf yolu keçmiş teatr, kino, musiqi və xalq sənətinin müxtəlif növlərinin tədqiqi Azərbaycan xalqının yüksək mədəni irsə malik olmasını sübut edir. Azərbaycanın mədəniyyət və incəsənət xadimləri milli mədəniyyətimizin dünyaya çatdırılması istiqamətində daim səy göstəriblər və buna nail olublar.

Bildirilib ki, Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə dünyada tanınıb. Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri çox-çox qədim zamanlara gedib çıxır. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr başlanıb. Bu, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan bir dövrdür. Ulu öndər deyirdi: ***"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"***. Məhz ona görə də ümummilli liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını həmişə diqqət mərkəzində saxlayıb. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, ulu öndərin qayğısını görməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında dahi rəhbərin çox dəyərli ideyalarından bəhrələnib. Ümummilli liderimiz Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoyub. Dahi şəxsiyyətin sayəsində mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanınıb.

Kursda tariximizdən, milli mədəniyyətimizdən və tariximizin öyrənilməsinə, mədəniyyətimizin inkişafına ulu öndərimizin böyük qayğısından bəhs edən filmlər nümayiş etdirilib.

Məlumat üçün bildirək ki, kursun növbəti məşğələlərində xalqımızın adət-ənənələri, turizm imkanları və tarixi abidələri, dövlətçilik tariximiz, ulu öndərimizin dövlətçilik tariximizdəki rolu haqda iştirakçılara məlumat veriləcək, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti, olduğu yer üzrə qeydiyyatı, müvəqqəti yaşama, daimi yaşama və iş icazələrinin verilməsi qaydaları barədə söhbət açılacaq. Bundan başqa, iştirakçılar muxtar respublikada fəaliyyət göstərən bir sıra muzeylərlə də tanış olacaqlar.

**Xəbərlər şöbəsi**

*Rayonun yaranma tarixi haqda məlumat verərək qeyd etmək istərdik ki, 1727-ci ildə Culfa rayonunun ərazisi bir neçə nahiyədən ibarət olub. Culfa isə kənd kimi Dərəşam nahiyəsinə daxil edilib. 1926-cı ildə dairə mərkəzinə çevrilib. Buraya rayon statusu 1930-cu ildə verilib. Rayon mərkəzi 1949-cu ilə kimi Əbrəqunus olub. Həmin il Culfa rayonu yaradılıb. 1963-cü ildə indiki Ordubad rayonunun ərazisi də Culfa rayonuna daxil edilib. 1965-ci ildə rayonlar ayrılıb. Qədim Culfa indi yerləşdiyi ərazidən 4-5 kilometr aralı məsafədə olan Gülüstan kəndi ərazisində Araz çayı boyunca uzanan karvan yolu üzərində qərar tutub. Bu bölgə haqqında bir çox alimlər, səyyahlar, tacirlər maraqlı fikirlər söyləyiblər.*




# Naxçıvanın Şərqə açılan qapısı: Culfa

## *Son illərdə bu rayonun sosial-iqtisadi həyatında böyük dəyişikliklər müşahidə olunur*

Tarixi mənbələrə görə, 1603-cü ildə şəhər I Şah Abbas tərəfindən dağıdılıb. Bunu alman alimi A.Oleari də öz əsərində yazır. İngilis taciri Nyuberiyə görə, o vaxt şəhərdə evlərin sayı 3 minə, əhalinin sayı isə 20 min nəfərə çatırdı. Culfa şəhərinin adına Səfəvilər dövlətinin başlıca şəhərləri arasında rast gəlmək olur. Tarixçi Şərafəddin Əli Yəzdinin “Zəfərnamə” əsərində qeyd olunur ki, Culfa Naxçıvan vilayətində Araz çayının dağın ətəyindən keçdiyi ərazidə yerləşir. Burada məşhur Ziyaülmülk körpüsü salınıb. Şəhərin adının etimologiyasına gəldikdə isə “Culfa” sözü müxtəlif variantlarda işlənib. Bəziləri bu sözün “toxucu” mənasını verdiyini, müxtəlif mənbələrdə “Cula”, “Cülahə”, “Culh”, “Culha” kimi yazılan bu sözün fonetik dəyişikliklərə uğrayaraq “Culfa” şəklinə düşdüyünü söyləyirlər. Tarixi mənbələrdə də bu şəhərdə vaxtilə toxuculuqla məşğul olunduğu göstərilir. Bu da o deməkdir ki, Culfa Şərq və Qərb arasında mühüm ticarət əlaqələrinin keçid məntəqəsi olub, burada müxtəlif istehsal sahələri fəaliyyət göstərib.

Bu gün Culfa rayonu inkişafının yüksəliş dövrünü yaşayır. Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan verib.





Bu ilin birinci yarısında bütün maliyyə mənbələrindən əsas kapitala 14 milyon 273 min 300 manat və yaxud 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,6 faiz artaraq 12 milyon 626 min 900 manat olub. Cari ilin ötən dövründə rayonun Şurud kəndində yeni kənd və xidmət mərkəzlərinin, Bənəniyar kəndində kənd və xidmət mərkəzlərinin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzinin tikintisi, Culfa şəhərinin M.Əsgərov küçəsində yerləşən 18 və 20 nömrəli binaların əsaslı təmiri başa çatdırılıb, şəhərdə “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni inzibati bina və anbar kompleksinin, Saltaq və Qızılca kəndlərində kənd və xidmət mərkəzlərinin, Gal kəndində kənd mərkəzinin, Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış İdarəsinin inzibati binasının və yardımçı binaların tikintisi davam etdirilib.

“Şəhər su təchizatı və kanalizasiya layihəsi” üzrə su və kanalizasiya xətlərinin yenidən qurulması, bu sahədə yeni infrastrukturun yaradılması məqsədilə Culfa şəhərində su anbarlarının, sutəmizləyici və çirkab sutəmizləyici qurğuların, şəhərdaxili su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilib, 190 metr yeni içməli su xətti çəkilib, mövcud içməli su xəttinin 300 metr hissəsində təmir-bərpa işləri aparılıb. Bu dövrdə kənd yaşayış məntəqələrində də içməli su xətlərinin istismar vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər görülüb. Əbrəqunus kəndində 250 metr, Şurud kəndində 1202 metr uzunluğunda yeni su xətləri, Bənəniyar kəndində 240 metr drenaj xətti çəkilib, Göydərə, Kırna, Xanəgah, Dizə, Şurud, Gal kəndlərində, ümumilikdə, 1840 metr uzunluğunda mövcud su xətləri müxtəlif diametrli borulardan istifadə edilməklə təmir edilib, həmçinin Şurud kəndində 360 metr kəhriz xətti təmizlənib, Ərəzin kəndində artezian quyusu qazılıb. Rayonun sosial-mədəni və iqtisadi inkişafının mühüm sahələrindən biri olan yol tikintisi diqqət mərkəzində saxlanılıb, yeni yolların çəkilişi və mövcud yolların təmiri məqsədilə ardıcıl olaraq tədbirlər həyata keçirilib. Bəhs olunan dövrdə 12,2 kilometrlik Gal-Şurud avtomobil yolunda 65 ton asfalt-betondan istifadə edilməklə təmir işləri aparılıb, 2 körpü bərpa edilib, 44 su keçidi quraşdırılıb, su keçidlərində betonlama işləri aparılıb. Bu dövrdə Culfa şəhərinin, Bənəniyar kəndinin daxili avtomobil yollarında, Camaldın-Ərəfsə, Kırna-Gal avtomobil yollarında təmir işləri görülüb, ümumilikdə, 287,2 metr uzunluğunda su keçidləri quraşdırılıb, Saltaq kəndində 12 paqonometrlik yeni körpü tikilib.

Bu ilin birinci yarısında rayonda sənaye və kənd təsərrüfatı sahəsində də bir sıra uğurlar əldə edilib. Qeyd edək ki, bu ilin birinci yarısında rayonda 3 milyon 154 min 600 manatlıq sənaye məhsulu istehsal edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çoxdur. “Kənd təsərrüfatı ili”ndə aqrar sahədə də bir sıra uğurlar əldə edilib. Belə ki, 2015-ci ilin altı ayında 1123 kənd təsərrüfatı məhsulları istehsalçısına 50 faiz güzəştli şərtlərlə 344 min manat dəyərində 860 ton mineral gübrə satılıb, 581 istehsalçıya 334 min manat dövlət yardımı verilib, həmçinin aqrolizinq xətti ilə 18 ədəd traktor, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və aqreqatı alınıb sahibkarlara çatdırılıb. Bütün bunlar rayonda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafında əsaslı rol oynayıb. Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, bu ilin məhsulu üçün 2014-cü ilin payızında və cari ilin yazında 7718 hektar sahədə əkin aparılıb. Əkilmiş sahələrin 4982 hektarını taxıl, 506 hektarını dənli-paxlalı bitkilər, 386 hektarını kartof, 487 hektarını tərəvəz, 129 hektarını bostan məhsulları, 104 hektarını qarğıdalı və günəbaxan bitkisi, 31 hektarını birillik ot, 783 hektarı ötən illərdən qalma olmaqla, 1093 hektarını çoxillik bitkilər təşkil edib. Əkilmiş 4982 hektar taxıl sahəsinin 3957 hektarı buğda, 1308 hektarı arpa olub. 1 iyul 2015-ci il tarixə olan məlumata görə, 5488 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahələrinin 31,5 faizindən 5315 ton, 386 hektar kartof əkini sahəsinin 31,1 faizindən 925 ton, 487 hektar tərəvəz əkini sahəsinin 15,8 faizindən 245 ton, barverən meyvə bağlarından 932 ton məhsul yığılıb. Aqrar sahənin inkişafı, keyfiyyətli yem məhsullarının tədarükü kənd təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın da inkişafına təkan verib. Kəndlərdə baytarlıq xidmətlərinin təşkili, baytarlıq xidmətləri üçün infrastruktur obyektlərinin yaradılması və lazımi avadanlıqlarla təchiz edilməsi, heyvanlar arasında yayılan xəstəliklərin qarşısının alınması, ümumilikdə, heyvandarlığın inkişafında, o cümlədən heyvandarlıq məhsullarının istehsalında artım əldə edilməsində mühüm rol oynayıb. Bunun nəticəsidir ki, bu ilin altı ayında rayonda 1921 ton ət, 5378 ton süd, 121 ton yun istehsal edilib. Ötən ilin bəhs edilən dövrü ilə müqayisədə ət istehsalı 13,5 faiz, süd istehsalı 1,1 faiz, yun istehsalı isə 1,3 faiz artıb. Rayonda, ümumilikdə, 14 milyon 265 min 500 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib.



Rayonda aqrar sahənin inkişafında mühüm rol oynayan meliorasiya işlərinə də xüsusi diqqət yetirilir. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bölgədə suvarma sistemlərinin, hidrotexniki qurğuların, su nasos stansiyalarının işlək vəziyyətdə saxlanması və bu sahədə həyata keçirilən yenidənqurma tədbirləri nəticəsində bu ilin birinci yarısında suvarma suyu arxlarının, ümumilikdə, 57 min 950 metrlik hissəsi lil və çöküntülərdən təmizlənib, Bənəniyar kəndində 480 metr uzunluğunda yeni suvarma su xətti çəkilib, “Culfa-1” nasos stansiyasında 1 ədəd yeni nasos aqreqatı quraşdırılıb, “Yaycı-1” nasos stansiyasında 2 ədəd nasos aqreqatı təmir edilib, “Yaycı-2”, “Milax”, “Kırna”, “Bənəniyar” nasos stansiyalarında təmir işləri həyata keçirilib.

Culfa rayonunda yaşıllaşdırma işlərinə də xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, bu ilin birinci yarısında ətraf mühitin mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi və mövcud problemlərin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib. Çoxillik kolların və həmişəyaşıl ağacların yetişdirilməsi üçün Culfa şəhərində yaradılan istixananın fəaliyyəti genişləndirilib. Ekoloji tarazlığın qorunmasında müstəsna rola malik yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər nəticəsində bu ilin birinci yarısında 1,5 hektar sahədə yeni yaşıllıqlar salınıb, 12 hektar mövcud yaşıllıq sahəsində bərpa işləri aparılıb, 2000 ədəd meyvə ağacı, 1200 ədəd meşə ağacı, 110 ədəd həmişəyaşıl ağac, 5250 ədəd müxtəlif növ çoxillik gül kolları əkilib.

Bəhs olunan dövrdə sosial sahələrin inkişafına da xüsusi diqqət yetirilib. Təhsil sahəsində işin müasir tələblər səviyyəsində qurulması, yeni məktəblərin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və yenidən qurulması diqqət mərkəzində saxlanılıb, tədris müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı yaxşılaşdırılıb. Bu dövrdə Bənəniyar kəndində 648 şagird yerlik, Şurud kəndində 110 şagird yerlik məktəb binalarının əsaslı təmiri başa çatdırılıb, Saltaq, Qızılca, Gal kəndlərində isə məktəblərin tikintisi davam etdirilib. Tədris müəssisələrində 67 ədəd elektron lövhədən dərs prosesində istifadə olunub, həmçinin məktəblərə 395 ədəd kompüter dəsti verilib, 376 kompüter internet xəttinə qoşulub.

Həyata keçirilən quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də səhiyyə sahəsində fəaliyyətin daha da gücləndirilməsidir. Cari ilin ötən dövründə tibb xidmətinin müasir tələblər səviyyəsində təşkili məqsədilə qarşıya qoyulan bir çox vəzifələrin həyata keçirilməsi, müasir tibb infrastrukturunun yaradılması rayonda aparılan quruculuq işlərinin tərkib hissəsinə çevrilib, kompleks quruculuq işləri aparılan kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri yaradılıb. 2015-ci ilin ötən aylarında Şurud kəndində yeni həkim ambulatoriyası tikilib, Bənəniyar kəndində isə həkim ambulatoriyası yenidən qurulub. Bu da, öz növbəsində, əhaliyə göstərilən tibb xidmətinin keyfiyyətinin yüksəldilməsinə və yaxşılaşdırılmasına gətirib çıxarıb.

Rayonda milli dəyərlərimizin qorunub saxlanılması və gənc nəslə ötürülməsi, xalq yaradıcılığının təbliğ və təşviq olunması, tarixi, mədəniyyət və təbiət abidələrinin, milli-mədəni irsimizə aid obyektlərin bərpası və yenidən qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. 2015-ci ilin ötən dövründə Bənəniyar kəndində musiqi məktəbinin tikintisi başa çatdırılıb, Əlincəqala və Gülüstan abidələrinin bərpası davam etdirilib.

Rayonda əhalinin sosial müdafiəsi ötən illərdə olduğu kimi, bu ilin birinci yarısında da xüsusi dövlət qayğısı ilə əhatə olunan sahələrdəndir. Bu sahədə görülən işlər aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına yönəldilib. Bu ilin birinci yarısında 170 aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilib, ümumilikdə, 318 ailənin 1330 üzvünə 201 min 51 manat yardım ödənilib. 20 növ üzrə 1583 nəfərə 678 min 804 manat sosial müavinət və digər növ müavinətlər hesablanaraq ödənilməsi təmin edilib.

...Azərbaycanın Şərqə açılan qapısı Naxçıvandırsa, Naxçıvanın Şərqə açılan qapısı Culfadır. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində həyata keçirilən çoxsaylı tədbirlər muxtar respublikanın bu bölgəsinin daha da inkişafına, insanların daha yaxşı şəraitdə yaşamasına və işləməsinə xidmət edir.

**Səbuhi HÜSEYNOV**

*Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası ərazisində olan tarixi məkandır və burada son onilliklər ərzində ali təhsil müəssisələrinin tikintisi, dini memarlıq abidələrinin bərpası, arxeoloji ərazilərin, eləcə də qalaların və abidələrin qorunması istiqamətində çox mühüm işlər görülmüşdür. Bütün bu işlər Azərbaycan Respublikasının zəngin mədəniyyətini, unikal dövlət quruculuğunu nümayiş etdirir və yaşadır.*

## Abbasabad qalası Azərbaycanın tarixi əhəmiyyətini ifadə edir



XVII əsrdə Ordubad rayonunun Biləv kəndində Abid adlı heykəltəraş daş qoç fiquru hazırlamışdır. Həmin dövrə aid olan çoxsaylı daş qoç fiqurlu qəbirüstü xatirə abidələrinin bir hissəsi indiyədək kənd qəbiristanlığı və Ordubad şəhərindəki muzeydə saxlanılır. 2014-cü ildə bu rayona səfərim zamanı Abidin əsərlərini görmək imkanım oldu. Dünya sivilizasiyasının beşiyi olan Naxçıvanda gördüyüm daş qoç heykəlləri Avropa heykəltəraşlıq məktəbi üçün yeni standartlar yaratmış və sübut etmişdir ki, əvvəllər də burada heykəltəraşlıq sənəti yüksəlişdə olmuşdur. Azərbaycanın digər rayonları ilə müqayisədə Naxçıvanın qədim tarixi vardır və dünyaya çoxlu alimlər, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kimi uzaqgörən dövlət rəhbərləri, tanınmış memarlar və iqtisadçılar bəxş etmişdir. Bu şəxslər Xəzər regionunun iqtisadi inkişafına böyük töhfələr vermişlər.

Keçmişdə burada baş vermiş bir çox faciəli tarixi hadisələrə baxmayaraq, Naxçıvan bu gün iqtisadi inkişafı, qədim qalaları və dini memarlığı ilə bütün dünyanı təəccübləndirir. Həmçinin Naxçıvan Avroasiyanın kəsişdiyi yerdə bir çox şəhərlərin inkişafına da təsir göstərir.

Naxçıvan qədim dövrdən bəri ədəbiyyat sahəsində də zəngin ənənəyə malik olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanının boylarında olan süjetlərin bəziləri Naxçıvanla bağlıdır və həmin boylarda burada olan tarixi yerlərdən söz açılmışdır. Mütəxəssislər boylarda baş verən hadisələrin, xüsusilə "Basatın Təpəgözü öldürməsi" və "Bəkilin oğlu İmranın", əsasən, Naxçıvan ilə bağlı olmasını təsdiq edirlər. Həmçinin "Koroğlu", "Əsli və Kərəm", "Qaçaq Nəbi" dastanlarında da Naxçıvan süjetləri, coğrafi adları və qəhrəmanlara rast gəlinir. Azərbaycan xalqına məxsus şifahi xalq ədəbiyyatının janrından olan haxışta, gülüməyi və yallıbaşı mahnılarında da Naxçıvan folklorunun izləri vardır. Şifahi xalq ədəbiyyatının ən mühüm sahələrindən olan aşıq sənəti (əsasən Şərur və Şahbuz rayonları) burada inkişaf etmişdir. Bundan əlavə qeyd etmək olar ki, qədim zamanlarda Qətran Təbrizi kimi çoxlu sayda tanınmış şairlər və yazıçılar Naxçıvanda yaşamış və kitablar yazmışlar.

Naxçıvan şəhərindən 12 kilometr cənub-şərqdə Araz çayının sahilində orta əsr şəhəri Astabad yerləşir. Bu şəhərin qalıqları Babək qəsəbəsi yaxınlığındadır. XIV əsrə aid yazılı rəsmi sənədlərdə, Rusiyada mövcud olan əlyazmalarda və qonşu əyalətlərdə Astabad adına təsadüf edilir. XVIII-XIX əsrlərdə bu ad tədricən unudulmuş, yaxınlığındakı məbədin adı ilə bəzən Qızılburun adlandırılmışdır. 1895-ci ildə Qızılburunda gildən hazırlanmış kişi heykəlciyi tapılmışdır. Burada olan qədim qəbiristanlıqda aparılan arxeoloji qazıntılar zamanı (1926) Tunc dövrünə aid boyalı qablar, silahlar, üzərində insan təsviri olan daş və sair aşkar edilmişdir. Orta əsrlərdə Astabad Hürufiliyin mərkəzlərindən biri olmuşdur. Tədqiqatçılara görə, həmin hərəkatın banisi Fəzlullah Nəimi Astabadda yaşamış və "Astabadi" təxəllüsü daşımışdır. Bu şəhər feodal ara müharibələri nəticəsində dağıdılmış və Araz Su Anbarının tikintisindən sonra su altında qalmışdır.




Abbasabad qalası Naxçıvan şəhərindən 6 kilometr cənub-şərqdə Araz çayının sahilində yerləşir. Bu qala fransız hərbi mühəndislərin layihəsi əsasında 1809-1810-cu illərdə inşa edilmişdir. Əlbəttə, birinci dəfə idi ki, fransız hərbi mühəndislər Xəzər regionunda olan bir ölkədə hərbi infrastrukturun inkişafına böyük təsir göstərmişlər. Beşbucaq şəklində olan qalanın bürcləri vardır. Qala divarlarının hündürlüyü 4,3 metr, qalınlığı isə 60 santimetr idi. Qala Naxçıvan xanlığının müdafiəsində xüsusi strateji rol oynamışdır. Bir sözlə, Abbasabad qalası hərbi zərurətdən yaranmış müdafiə istehkam idi.

Birinci Rusiya-İran müharibəsinin gedişində (1804-1813) dəfələrlə ağır məğlubiyyətə uğrayan İran tərəfi Naxçıvan xanlığının ərazisində özünün hərbi mövqelərinin möhkəmləndirilməsinə böyük diqqət verirdi. Abbasabad qalası Abbas Mirzənin arzusu ilə fransız mühəndislər tərəfindən Naxçıvanda tikilmiş və İran taxt-tacının vəliəhdinin şərəfinə adlandırılmışdır. Avropa memarlığı üslubunda tikilən bu qaladan Araz çayı üzərində olan keçidin müdafiəsi təşkil olunmaqla yanaşı, həm də Cənubi Azərbaycana gedən yola nəzarət etmək və lazım gəldikdə bu yolu bağlamaq mümkün idi. Qala İran mövqelərinin rus ordusunun hücumlarından qorunması üçün mühüm məntəqə hesab edilirdi.

Abbasabad qalasındakı istehkamlardan ikisi Araz çayına söykənirdi. Bu istehkamların başlıca vəzifəsi zərurət nəticəsində qala qarnizonu geri çəkilərkən onun Araz çayının sağ sahilinə təhlükəsiz keçməsini təmin etməkdən ibarət idi. O.Yevetski yazırdı ki, Abbasabad qalası fransız və ingilis zabitləri tərəfindən tikilib möhkəmləndirilmiş, bürcləri olan beşbucaqlı poliqondur. Abbasabad qalası vaxtilə bu bölgədə mövcud olan qədim Astabad yaşayış məntəqəsinin yerində inşa edilmişdir. 1834-1835-ci illərdə Naxçıvan bölgəsində olmuş F.Korf qalanın tikilmə tarixindən bəhs edərkən yazırdı: "Mən 25 il əvvəl bu ölkədə Abbas Mirzə tərəfindən tikdirilmiş Abbasabad qalasını gördüm. O, Abbas Mirzənin yanında xidmət edən bir fransız mühəndisin planı əsasında tikilmişdir".

Abbasabad qalası rus tarixçisi N.Nefedovun 1839-cu ildə nəşr olunmuş yol qeydlərində daha ətraflı təsvir olunur. Qeyd olunur ki, Naxçıvanın əks tərəfində təbiət hadisələri nəticəsində tərk edilib dağıdılmış Abbasabad qalası görünür. Mən fransız mühəndislərin tikdikləri bu tikiliyə baş çəkməyi özümə borc bildim. Daşla hörülmüş və lazım gəldikdə su ilə doldurulan dərin xəndək, ikiqat mazğalı olan divar, bürclər, daşla örtülmüş yollar və istehkamın müdafiə vasitələri göstərir ki, qalanı tikənlər burada, həqiqətən, çox böyük məharətlə çalışmışlar. Onu da xüsusi qeyd etmək lazımdır ki, onlar böyük uzaqgörənliklə qalanı elə tikmişlər ki, körpü üzərinə çıxan qarnizon Arazın o tayına öz ölkələrinin içərilərinə təhlükəsiz keçə bilsin. Abbasabad qalası birinci Rusiya-İran müharibəsinin gedişində fransızlar tərəfindən tikilmiş, Gülüstan müqaviləsindən (1813) sonra isə ingilislər tərəfindən bərpa edilərək yenidən qurulmuşdur. Abbasabad qalası İran ordusunun Cənubi Qafqazda mühüm dayaq məntəqələrindən biri olub, Azərbaycanın cənubuna gedən yolun təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edirdi.

İkinci Rusiya-İran müharibəsi zamanı (1826-1828) Abbasabad qalasında ağır döyüşlər baş vermişdir. Qalanı 4000 döyüşçü və 500 atlı müdafiə edirdi. Qalanın baş mühafizi İran ordusuna komandanlıq etmiş Abbas Mirzənin kürəkəni Məhəmməd Emin xan idi. Ehsan xan Kəngərli də bu qalanın mühafizi olmuşdur.

Abbasabad qalası kimi tarixi abidələr Azərbaycan tarixi barədə əlavə tədqiqatların aparılmasına və arxeoloji tədqiqatlar üçün önəmli olan yerlərin qorunmasına zəmin yaradır. Azərbaycanın qədim tarixi vardır və bu tarix arxeoloji ərazilərdə, xalqın mədəniyyəti üçün mühüm varlıq hesab olunan qalalarda aparılan tədqiqatlarda təşviq edilməli və tanıdılmalıdır.

**Peter TASE**
**16.08.2015**
**Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi haqqında" 26 yanvar 2015-ci il tarixdə imzaladığı Sərəncam bir tərəfdən muxtar respublika rəhbərinin Azərbaycan və dünya elminə dəyərli töhfələr vermiş alimlərin xatirəsinin əbədiləşdirilməsinə xüsusi diqqət və önəm verdiyini təsdiqləyirsə, digər tərəfdən çox zəngin fəaliyyəti ilə əbədiyaşarlıq qazanan nümunəvi bir insanı bugünkü nəslə və gələcək nəsillərə tanıtmaq məqsədi daşıyır.***

Əziz Şərif – 120

## Mollanəsrəddinçilikdən mollanəsrəddinşünaslığa

Azərbaycan ədəbiyyatını və ədəbiyyatşünaslığını keçmiş SSRİ miqyasında tanıdan, təbliğ edən və sevdirən professor Əziz Şərifin, fikrimcə, ən ali keyfiyyəti onun vətənpərvərliyi, Azərbaycana olan sonsuz sevgisi idi. Filologiya üzrə fəlsəfə doktoru Fərqanə Kazımovanın Abbas Zamanovla Əziz Şərifin dostluğundan bəhs edən "Biz belə bir ömür yaşadıq" adlı məqaləsindən biz Əziz Şərifin özündən asılı olmayan səbəblərdən qürbətdə yaşayıb fəaliyyət göstərməsinə baxmayaraq, hər zaman doğma vətəni haqqında düşündüyünü, Azərbaycanın mənafeyini müdafiə etmək uğrunda daim vicdanla çalışdığını, mədəniyyətimizin divarına qoyduğu hər bir adi kərpiclə fərəh duyduğunu öyrənirik. Müəllif böyük alimin vətən həsrətini öz dili ilə Abbas Zamanova yazdığı məktubundan gətirdiyi bir hissə ilə nəzərə çatdırır: *"Allah səni bizim kimi qərib ellərdə can çürüdənlərə, gözləri yollarda qalanlara çox görməsin! Sənin hər bir məktubun mənə vətən havasını gətirir. Ona görə də məktubların arası kəsiləndə mən özümü oksigensiz kimi hiss edir, darıxmağa başlayıram".*

Bu misralardan görünür ki, Əziz Şərif Moskvada da vətənin havası ilə, Azərbaycanla nəfəs almış, ürəyi Azərbaycanla birgə döyünmüşdür.

İlk təhsilini məşhur maarifçi-pedaqoq Məhəmməd Tağı Sidqinin "Məktəbi-tərbiyə"sində alan balaca Əziz sonra Tiflisdə Cəlil Məmmədquluzadənin evində təşkil etdiyi pansionda həm müxtəlif elmi biliklərə yiyələnmiş, həm də gələcək mollanəsrəddinçiləri – Mirzə Cəlili, M.Ə.Sabiri, Ə.Haqverdiyevi daha yaxından tanımışdır. Mirzə Cəlilin həyat və yaradıcılığından bəhs edən "Böyük demokrat" ("Molla Nəsrəddin") əsərinin müəllifi Mirzə İbrahimov Əziz Şərifin 70 illik yubileyi ərəfəsində qələmə aldığı "Qocaman tənqidçi" məqaləsində onun Cəlil Məmmədquluzadəyə olan sonsuz məhəbbətindən söz açaraq yazmışdır: *"Məncə, bizlərdən heç kəs Cəlil Məmmədquluzadənin həyatını, yaradıcılığını, əsərlərinin tarixini, ideya-bədii xüsusiyyətlərini Əziz Şərif qədər mükəmməl və dərindən tədqiq etməmişdir. Bu, Əziz Şərifin nəcib, yaxşılığı unutmayan və ona yüz qat artıqlaması ilə cavab verməyə hazır olan təbiətindən doğur".*

Gələcəyin mollanəsrəddinşünas aliminin formalaşmasında "Molla Nəsrəddin" ədəbi məktəbinin rolu və təsiri çox böyükdür. "Molla Nəsrəddin" jurnalının 21 iyul 1906-cı il tarixli 16-cı sayında "Naxçıvan" başlığı ilə təqdim olunan mollanəsrəddinsayağı kiçik publisist yazını jurnal "Əziz Qurbanəli oğlu Şərifzadə" açıq imzası ilə nəşr etmişdi. Bu, jurnalın ən gənc, daha doğrusu, yeniyetmə çağında olan abunəçisi və qələm sahibini – 11 yaşlı Əziz Şərifi həm həvəsləndirmək, həm də ədəbi mühitə tanıtmaq məqsədilə atılmış bir addım idi.

Professor Əziz Şərifin fəaliyyəti daha çox Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının tədqiqinə həsr edilmişdir. O, Cəlil Məmmədquluzadənin yeni tərcümeyi-hal sənədlərini və bəzi naməlum əsərlərini tapıb aşkara çıxarmış, ədibin mühitini və yaxın müasirləri ilə əlaqələrini öyrənməyə müvəffəq olmuşdur. Görkəmli yazıçının müasirlərindən əksəriyyətini şəxsən tanıdığından və onların bəziləri tədqiqat apardığı illərdə həyatda olduqlarından Əziz Şərif mirzəcəlilşünaslığı bir çox yeni materiallarla zənginləşdirmişdir. Əziz Şərifin "Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının birinci dövrü" mövzusunda yazdığı doktorluq dissertasiyası mollanəsrəddinçi ədəbiyyatın tədqiqi tarixində yeni hadisədir. Bundan əvvəl Əli Nazim və Mirzə İbrahimovun da Cəlil Məmmədquluzadə haqqında əhəmiyyətli əsərlərinin mövcud olmağına baxmayaraq, professor Əziz Şərifin bu əsəri ilə Azərbaycanda mirzəcəlilşünaslıq ciddi elm səviyyəsinə qaldırılmışdır. 1905-ci ilin noyabr və dekabr aylarında Tiflisdə nəşr olunan "Qafqaz fəhlə vərəqəsi" qəzetindən Cəlil Məmmədquluzadənin "Binəsiblər" və "Xeyir-dua" adlı iki məqaləsini Əziz Şərif üzə çıxarmış, "Sovet Gürcüstanı" qəzetində 1941-ci ildə çap olunmuş "Cəlil Məmmədquluzadə haqqında yeni material" adlı yazısında bu məqalələri elmi-ədəbi mühitə təqdim etmişdir.

Böyük Sabirin vəfatının 9-cu ildönümü münasibətilə yazdığı "Mirzə Ələkbər Sabir" adlı məqaləsində böyük satira ustasına olan dərin hörmət və sevgi diqqəti cəlb edir. 1982-ci ildə Abbas Zamanovun tərtib etdiyi "Sabir xatirələrdə" adlı kitabda dərc olunmuş "Sabir Tiflisdə" adlı xatirəsində Əziz Şərif həm Sabirin Qurbanəli Şərifzadəyə yazdığı məktublarından (bu məktublardan Sabirin xəstəlik tarixini özünün dilindən daha düzgün öyrənirik) və Məmmədəli Sidqinin Sabirin vəfatının 20 illiyi münasibətilə yazılmış xatirəsindən bəhs olunmuşdur. Sidqinin xatirəsindən belə məlum olur ki, Sabir Tiflisdə olduğu zaman xəstəliyinə baxmayaraq, redaksiyaya gələn qəzet və jurnalları nəzərdən keçirər, növbəti nömrəyə yazı, şəkillər haqqında yararlı mövzular verərmiş.

Professor Əziz Şərif "Sabir bu gün", "Molla Nəsrəddin" necə yarandı" kimi fundamental əsərlərin müəllifidir. Alimin 1968-ci ildə rus dilində, 1986-cı ildə Azərbaycan dilində çap olunmuş "Molla Nəsrəddin" necə yarandı" monoqrafiyası bu gün də ciddi elmi əhəmiyyətə malik olan, faktların zənginliyi, Azərbaycançılıq ruhu ilə yazılan əsərlərdən biri kimi qəbul olunur. Bu əsər haqqında akademik Mirzə İbrahimov yazmışdır: "Bu əsər təqdirəlayiqdir, ona görə ki, əlli illik düşüncələrin, axtarışların, tədqiqatın yekunudur və böyük məhəbbətlə yazılmışdır".

Görkəmli alim Əziz Şərifin "Molla Nəsrəddin" necə yarandı" monoqrafiyası Naxçıvanda yenidən nəşr olunmuşdur. Akademik İsa Həbibbəylinin bu kitaba yazdığı "Görkəmli ədəbiyyatşünas və böyük ziyalı" adlı ön söz alimin natamam tərcümeyi-halına çox dəyərli əlavələri ilə diqqəti cəlb edir. Filologiya üzrə fəlsəfə doktoru, dosent Seyfəddin Eyvazovun bu nəşr haqqında yazdığı "Məcrasına sığmayan irmaq – Əziz Şərif" adlı məqaləsində qeyd etdiyi kimi bu sahədəki bir çox xronoloji boşluqları akademik İsa Həbibbəyli tamamlamışdır. İsa Həbibbəylinin ön sözündə Əziz Şərifin 1919-cu ildə Tiflisdə çap olunmuş mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın ölümünə həsr etdiyi məqaləsilə bütünlüklə tanış oluruq: "Bazar günü martın 16-da Tiflis şəhərinin müsəlmanları faciəli şəkildə həlak olmuş hələ gənc olan bir şairi – Əliqulu Nəcəfovu dərin kədər hissi ilə torpağa tapşırdılar. O, maddi cəhətdən son dərəcə təmin olunmamış, ürəyində intəhasız qəm-qüssə, baxışlarında insana sönməz sevgi daşıyan istedadlı şair idi. Və namərd bir insanın qaba gülləsi poeziyaya bu qədər dəyərli incilər bəxş etmiş qələmini onun əlindən aldı. Hökumət cinayətkarları ədalətlə cəzalandırmaq üçün ən təsirli tədbirləri görməlidir. Lakin şair həlak olub! Artıq heç bir qüvvə onu geri qaytara bilməz!"

Qeyd edək ki, Əziz Şərif bu kitabda Cəlil Məmmədquluzadənin doğum tarixini düzgün göstərmişdir. Əziz Şərif yazır: *"Yazıçının bu göstərişini əsas götürüb o biri məlumatlarla tutuşdurmaq yolu ilə biz onun anadanolma ilini bu günə kimi 1869-cu il deyə təyin edir, ay və gününü isə göstərməkdən çəkinirdik. Hər halda biz rəsmi doğum şəhadətnaməsində təsdiq edilmiş 1866-cı il tarixini qəbul etmək məcburiyyətindəyik".*

Mollanəsrəddinşünaslığın əsasını qoymuş və Azərbaycan ədəbiyyatını keçmiş SSRİ məkanında tanıtmış və sevdirmiş bir ədəbiyyatşünas, tərcüməçi, tənqidçi və publisist kimi Əziz Şərifin əsərləri bu gün də ədəbiyyatşünasların stolüstü kitabıdırsa, demək ki, o, əbədiyaşarlıq qazana bilmişdir. Azərbaycan elmini və incəsənətini dünyaya tanıdan belə vətənpərvər fədailərimizi xalqımız hər zaman böyük hörmət və ehtiramla anacaqdır!

**Aygün ORUCOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***



# Naxçıvan teatrının gənc aktyor və aktrisaları

***Azərbaycan teatr salnaməsinə parlaq səhifələr yazan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı köklü sənət məbədi, Şərqin ən qocaman mədəniyyət ocaqlarından biridir.***

Səhnəyə qoyduğu mütərəqqi ideyalı əsərlərlə ədəbi mühitin canlanmasına və ictimai-mədəni fikrin formalaşmasına qüvvətli təsir göstərən bu teatr istedadlı aktyorların, rejissorların və teatr rəssamlarının birgə zəhməti sayəsində ölkəmizin digər tanınmış teatrları ilə bir sırada dayanmaq hüququ qazanıb. İndi də bu sənət ocağı öz maraqlı səhnə əsərləri ilə teatrsevərlərin xidmətindədir. Sevindirici hal həm də ondadır ki, bu sənət məbədinə üz tutan gənclərin sayı getdikcə artır. Onlar ustad aktyor və aktrisaların yollarını davam etdirməyə səy göstərirlər. Belə gənclərin bir neçəsini oxucularımızla tanış etmək istəyirik. Budur, qarşımızda Nurbəniz Niftəliyevadır. Bizimlə söhbətinə gənc aktirsa belə başladı:

– Teatr mənim üçün müqəddəs bir yerdir. Həyatımı teatrsız təsəvvür edə bilmərəm. Düşünürəm ki, mənim üçün dünyanın heç bir iş otağı səhnə qədər sehrli və cazibədar ola bilməz. Oynadığım rollara gəlincə, Çexovun “Russayağı evlənmə” əsərində Natalya, İslam Səfərlinin “Göz həkimi” əsərində Gülər, Hüseyn Cavidin “Şeyx Sənan” faciəsində Nina, Müzəffər Nəsirlinin “Qonçabəyimin nəğməsi” əsərində Pəri obrazlarını canlandırmışam. Aktyor yoldaşlarım işimin öhdəsindən layiqincə gəldiyimi söyləyirlər.

Onu da qeyd etmək lazımdır ki, Nurbəniz xanım Prezident mükafatına layiq görülüb. Gənc aktrisaya gələcəkdə də belə mükafatlara layiq görülməsini arzulayırıq.

Teatrın gənc aktyorlarından biri olan Səyyad Məmmədov söhbətimizə qoşulur. O, aktyorluğa 2005-ci ildə Elman Həbibin “Ağ ölümün ölümü” televiziya filmində İqbal rolu ilə başlayıb. Rolun öhdəsindən gəldiyini görən rejissorlar ona digər tamaşalarda da rollar təklif ediblər. Səyyad da çalışıb ki, göstərilən etimadı doğrultsun. İndi isə onun oynadığı tamaşaların bir neçəsi ilə tanış olaq. “Mirzə Cəlilin həyatı”nda, “Ağa Məhəmməd şah Qacar”da, “Göz həkimi”ndə, “Araz sahilində doğan Günəş”də, “Xırs quldurbasan” və başqa əsərlərdə rol alan Səyyad Məmmədov gözəl bir fikir səsləndirdi: – Aktyorun bacarığı o vaxt üzə çıxır ki, o, başqasının hissini, həyəcanını səhnədə özününküləşdirə bilsin.

Onu da bildirmək istəyirik ki, gənc aktyor bu il Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Aktyorluq sənəti ixtisasına qəbul olunub.

Gənc aktyorlarla söhbətimiz zamanı diqqətimizi çəkən iki gənc aktyor səhnədə məşq edirdi. Onlarla da tanış olmaq istədik. Məşq bitdikdən sonra onlarla görüşdük. Gənclərdən biri Fidan Qasımovadır. Fidan Qasımova ilə söhbətimiz zamanı aydın oldu ki, o da Naxçıvan Dövlət Universitetinin Aktyorluq sənəti ixtisası üzrə təhsil alır. İlk dəfə Tələbə Teatr Studiyasında Gülxarə Əhmədovanın rejissorluğu ilə hazırlanmış “Zəncirlənmiş Prometey” əsərində rol alıb. İlk rolu olmasına baxmayaraq, Fidan bunun öhdəsindən gələ bilib. Sonralar gənc aktrisa teatra üz tutub, bir neçə tamaşada oynayıb.

Bəhs etdiyimiz digər gənc aktyor Elnur Rzayev Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsində təhsil almasına baxmayaraq, onun aktyorluq sənətinə həvəsi böyükdür. 2011-ci ildə Naxçıvan teatrına gəlib. İlk səhnə rolu isə Rövşən Hüseynovun rejissorluğu ilə hazırlanan “Mirzə Fətəli dünyası” adlı tamaşada gənc Fətəli obrazı olub. Elnur Rzayevin fikrincə, gerçək həyatın incəliklərini səhnədə canlandırmaq və onu tamaşaçılara olduğu kimi çatdırmaq çox çətin və məsuliyyətli işdir.

Biz bu yazımızda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının bir neçə gənc aktyoru barədə söhbət açdıq. Qədim sənət məbədimizdə belə gənclər çoxdur və onlar yaşlı və təcrübəli səhnə ustalarından bu sənətin sirlərini öyrənirlər. Onlara gələcək səhnə fəaliyyətlərində uğurlar arzulayırıq.

**Nigar MUSTAFAYEVA**

## Şərur rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Məktəblərlə rayon arasında məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika-astronomiya | | Kimya | | Biologiya | | Texnologiya | | Rəsmxət və rəsm | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | Musiqi və nəğmə | | İTPM | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Mahmudkənd tam orta məktəbi | 5 | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 2. | Oğlanqala kənd tam orta məktəbi | 6 | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 3. | Dizə kənd tam orta məktəbi | 9 | 1 | 13 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 13 |
| 4. | Həmzəli kənd tam orta məktəbi | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 5. | Axura kənd tam orta məktəbi | 18 | | | 1 | 12 | | | | | 1 | 14 | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | 4 | 50 |
| 6. | Gümüşlü kənd tam orta məktəbi | 18 | 1 | 12 | 1 | 12 | | | | | | | | | 1 | 10 | 1 | 10 | 1 | 10 | | | | | | | | | | | | | 5 | 54 |
| 7. | Şahbulaq kənd tam orta məktəbi | 27 | | | | | | | 1 | 13 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 13 |
| 8. | Muğancıq-Mehrab kənd tam orta məktəbi | 2 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 9. | Aralıq kənd tam orta məktəbi | 5 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 |
| 10. | Aşağı Daşarx kənd tam orta məktəbi | 10 | | | 1 | 18 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 2 | 30 |
| 11. | Yuxarı Daşarx kənd tam orta məktəbi | 7 | | | | | | | | | | | 1 | 11 | 1 | 12 | | | | | | | | | | | | | | | | | 2 | 23 |
| 12. | Yeni Havuş kənd tam orta məktəbi | 16 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 19 | 1 | 19 |
| 13. | Danyeri kənd tam orta məktəbi | 12 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 |
| 14. | Tənənəm kənd tam orta məktəbi | 20 | | | | | | | | | | | 1 | 12 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | 3 | 36 |
| 15. | Xanlıqlar kənd tam orta məktəbi | 10 | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 16. | Vərməziyar kənd tam orta məktəbi | 11 | | | 1 | 24 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 24 |
| 17. | Tumaslı kənd tam orta məktəbi | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 18. | Ərəbyengicə kənd tam orta məktəbi | 15 | | | 1 | 18 | | | 1 | 11 | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 29 |
| 19. | Qarahəsənli kənd tam orta məktəbi | 15 | | | 1 | 22 | | | 1 | 11 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 3 | 45 |
| 20. | Çəmənli kənd tam orta məktəbi | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 21. | Dərvişlər kənd tam orta məktəbi | 6 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 22. | Çərçiboğan kənd tam orta məktəbi | 4 | | | | | | | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 23. | Xələc kənd tam orta məktəbi | 6 | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | 3 | 36 |
| 24. | Alışar kənd tam orta məktəbi | 7 | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 25. | Muğanlı kənd tam orta məktəbi | 6 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 26. | Qorçulu kənd tam orta məktəbi | 7 | | | | | 1 | 14 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 2 | 26 |
| 27. | Axaməd kənd tam orta məktəbi | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 28. | Maxta kənd tam orta məktəbi | 13 | | | 1 | 18 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 2 | 30 |
| 29. | Diyadin kənd tam orta məktəbi | 16 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 30. | Qaraburc kənd ümumi orta məktəbi | 9 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 31. | Xətai kənd ümumi orta məktəbi | 14 | 1 | 13 | 1 | 16 | | | | | | | 1 | 7 | | | 1 | 5 | 1 | 8 | | | | | | | | | | | | | 5 | 49 |
| Cəmi: | | | 4 | 50 | 11 | 178 | 4 | 54 | 3 | 35 | 1 | 14 | 13 | 152 | 7 | 82 | 4 | 39 | 3 | 30 | - | - | 1 | 12 | 2 | 24 | - | - | - | - | 1 | 19 | 54 | 689 |

## Culfa rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Fiziki tərbiyə | | İTPM | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Culfa şəhər 1 №-li tam orta məktəb | | | | | | | | | | | | 1 | 14 | | | | | | | | | | | 1 | 14 |
| 2. | Culfa şəhər 3 №-li tam orta məktəb | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 |
| 3. | Yaycı kənd 1 №-li tam orta məktəb | 15 | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | 6 | 72 |
| 4. | Yaycı kənd 2№-li tam orta məktəb | 15 | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | 3 | 36 |
| 5. | Dizə kənd tam orta məktəbi | 17 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 |
| 6. | Gülüstan kənd tam orta məktəbi | 5 | | | | | | | 1 | 13 | | | | | | | | | | | | | | | 1 | 13 |
| 7. | Ərəzin kənd tam orta məktəbi | 22 | 1 | 12 | 1 | 12 | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | | | | | 1 | 12 | | | 1 | 12 | 7 | 84 |
| 8. | Bənəniyar kənd tam orta məktəbi | 30 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 9. | Göydərə kənd tam orta məktəbi | 33 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 10. | Xoşkeşin kənd tam orta məktəbi | 36 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 11. | Qazançı kənd tam orta məktəbi | 40 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 |
| 12. | Teyvaz kənd tam orta məktəbi | 50 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 13. | Ərəfsə kənd tam orta məktəbi | 51 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 |
| 14. | Ləkətağ kənd tam orta məktəbi | 59 | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | 2 | 24 |
| 15. | Boyəhməd kənd tam orta məktəbi | 68 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 | 1 | 18 |
| 16. | Şurud kənd tam orta məktəbi | 35 | | | 1 | 12 | | | | | | | 1 | 10 | 1 | 12 | | | | | | | | | 3 | 34 |
| 17. | Gal kənd tam orta məktəbi | 27 | | | 1 | 12 | 1 | 18 | | | | | 1 | 8 | 1 | 7 | 1 | 5 | 1 | 8 | 1 | 8 | | | 7 | 66 |
| Cəmi: | | | 3 | 36 | 4 | 48 | 6 | 78 | 1 | 13 | 5 | 60 | 6 | 68 | 3 | 31 | 2 | 17 | 4 | 44 | 1 | 8 | 5 | 66 | 40 | 469 |


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Rauf Əliyev

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 635